“ŞƏFFAFLIQ AZƏRBAYCAN”
KORRUPSİYAYA QARŞI MÜBARİZƏ
İCTİMAİ BİRLİYİ

**Əlaqə:**
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

# OKTYABR-DEKABR 2009-CU İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ

## MƏTBUAT ÜÇÜN HESABAT

1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT
2. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI
3. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR

## 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan “Transparency International” (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı antikorrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə antikorrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-lər olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırırlar. “Şəffaflıq Azərbaycan” İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə “Şəffaflıq Azərbaycan” təşkilatına milli bölmə statusu verilmişdir.

2005-ci il Aprel ayının 1-dən etibarən “Şəffaflıq Azərbaycan” İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni “ALAC” (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 56 55 97**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**

- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55**

Layihə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir. Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi-nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi proseduralarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

## 2. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Ötən rüb ərzində 5 mərkəz daxil olmaqla 1551 ilkin zəng və şikayət qəbul edilib: Bakı (212), Gəncə (416), Lənkəran (285), Quba (395) və Şəki (243). Şikayətçilərin ən aktiv olduğu region aşağıdakı diaqramdan da göründüyü kimi, Gəncə və Quba mərkəzləridir. Onları Lənkəran, Şəki və nəhayət Bakı mərkəzi izləyir. Şikayətlərin daha çox qəbul olunduğu bölglərin rayonlar olması onu göstərir ki, paytaxtda insanlar öz hüquqlarını müəyyən qədər bilirlər amma, bölgələrdə bu sahədə ciddi problemlər mövcuddur. Məhz bu mənada bölgələrdə maarifləndirmənin həyata keçirilməsinə və hüquqi məsləhətlərin verilməsinə ciddi ehtiyac var.

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətləri göstərir*



## Şikayətçilərin cinsi

Şikayət edənlərin əksəriyyəti kişilərdir. Statistikaya nəzər yetirsək mərkəzlərə şikayət ilə müraciət edən kişilərin sayının qadınlara nisbətən daha çox olduğu görünər. Bunun əsas səbəbi kimi mentalitet və ictimaiyyət arasında olan mövqeni göstərmək olar. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, bu hal özünü daha çox kənd yerlərində büruzə verir. Bunun əsas səbəblərindən biri isə yerli əhali ilə təşkil edilən görüşlərin əksəriyyətinin çay evi vəya ofis daxilində keçirilməsidir. Qadınların bu kimi yerlərdə təşkil edilən tədbirlərdə iştirakını stimullaşdırmaq isə bir qədər çətindir və təşkilat olaraq çalışırıq ki, təlimlərdə qadınların iştirak səviyyəsini artıraq. Gəncə və Quba şəhərlərində qadınların iştirak faizi digər mərkəzlərə müqayisədə daha yüksəkdir.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| Şikayətçilərin cinsi | | Bakı XIX rüb | Gəncə XIX rüb | Lənkəran XIX rüb | Quba XIX rüb | Şəki XIX rüb |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 118 | 204 | 184 | 181 | 154 |
| B | Qadın | 94 | 212 | 101 | 214 | 89 |
| C | **Şikayətlərin ümumi sayı** | 212 | 416 | 285 | 395 | 243 |

## Şikayətçilərin yaşı

Lənkəran, Quba və Şəki mərkəzlərində ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Gəncə mərkəzində isə bir qədər daha yaşlı əhalinin aktivliyi nəzərə çarpır.

| Yaş qrupu | | Bakı XIX rüb | Gəncə XIX rüb | Lənkəran XIX rüb | Quba XIX rüb | Şəki XIX rüb |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 3 | 0 | 0 | 6 | 0 |
| B | 20 – 35 | 28 | 27 | 48 | 110 | 46 |
| C | 35 – 50 | 57 | 223 | 154 | 130 | 60 |
| D | 50 – 65 | 37 | 129 | 29 | 82 | 12 |
| E | 65 + | 12 | 37 | 7 | 18 | 5 |
| F | Müəyyən deyil | 75 | 0 | 47 | 49 | 120 |
| **G** | **Ümumi say** | 212 | 416 | 285 | 395 | 243 |

## Şikayətçilərin coğrafi yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə kənd əhalisi də prosesə cəlb olunub. Quba və Şəki regional mərkəzlərinin kənd yerlərində keçirdikləri mobil təlimlərin nəticəsində mərkəzlərimizə müraciət edən kənd əhalisinin sayında da nəzərə çarpacaq artım müşahidə olunur.

**Şikayətlərin ilkin qəbul olunma mexanizmi**

Telefon zəngi və layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

**Şikayətlərin ünvanlandığı sahələr**

Bu rüb ərzində mərkəzlər üzrə şikayətlərin ən çox ünvanlandığı sahələr müxtəlifdir. Amma şikayətlərin ünvanlandığı sahələri nəzərdən keçirərkən ən çox narahatçılıq doğuran sahələrin **Məhkəmə, Pensiya və Ünvanlı Sosial Yardım, Polis, Bələdiyyə (əsasən regionlarda) və kommunal xidmət sahələri** ilə bağlı olduğu diqqət çəkir. Onu da qeyd etmək yerinə düşər ki, şikayətlərin daha çox bu sahələrdən qəbul edilməsinin səbəbi, bu qurumların birbaşa olaraq əhali ilə işləməsidir. Məhz mərkəzlərə edilən müraciətlər əsasında təşkilatımız tərəfindən hesabatlar hazırlanır. Hansısa sahədən daha çox şikayətin qəbul edilməsi ümumi mənada bu qurumların tamamilə korrupsiyaya uğraması və ya digər sahələrdə şəffaflığın tam təmin edilməsi ilə bağlı deyil.
Bir sıra hallarda göndərilən müraciətlərə müvafiq qurumlar tərəfindən verilən cavablar tam qanəedici səviyyədə olmur. Qurumlar problemin yoluna qoyulması istiqamətində fəaliyyət göstərmək əvəzinə, məsuliyyəti öz üzərilərindən kənara atmağa çalışırlar. Əmlak Məsələləri Üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestiri xidməti, Azəriqaz, Məhkəmə Hüquq Şurası və bir neçə qurumdan aldığımız cavablar bizi tam qane etmir. Amma bununla belə şikayətlərə məsuliyyətlə yanaşıb, onların həllinə çalışan qurumların fəaliyyətini də müsbət qiymətləndiririk. Bunlara misal kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyini göstərmək olar.
Aşağıdakı diaqramda hansı sahələrdən nə qədər şikayət qəbul olunduğu ilə bağlı məlumatlar əks olunub.

**Şikayətlərin sahələr üzrə bölgüsü – 19-cu rüb (ümumi sayı – 1551)**



| Sahələr üzrə | | Bakı XIX rüb rüb | Gəncə XIX rüb rüb | Lənkəran XIX rüb rüb | Quba XIX rüb rüb | Şəki XIX rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 36 | 151 | 14 | 107 | 28 |
| B | Səhiyyə | 0 | 14 | 9 | 3 | 6 |
| C | Təhsil | 4 | 19 | 13 | 18 | 7 |
| D | Gömrük | 0 | 0 | 0 | 0 | 2 |
| E | Vergi/Maliyyə | 0 | 0 | 6 | 2 | 1 |
| F | Polis | 20 | 82 | 15 | 48 | 15 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 1 |
| H | Alqi-satqı | 0 | 0 | 0 | 0 | 2 |
| I | Özəlləşdirmə | 9 | 0 | 4 | 16 | 7 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 0 |
| L | İcra orqanları | 7 | 34 | 25 | 27 | 11 |
| M | Pensiya və ünvanlı sosial yardım | 11 | 28 | 8 | 51 | 27 |
| N | Əmək mübahisəsi | 7 | 0 | 5 | 3 | 11 |
| O | Bələdiyyə | 4 | 13 | 47 | 53 | 3 |
| P | Prokurorluq | 20 | 22 | 1 | 1 | 2 |
| Q | Özəl sektor | 2 | 2 | 4 | 11 | 6 |
| R | Hərbi Kommisarlıq | 0 | 0 | 1 | 1 | 4 |
| S | Kommunal xidmətlər | 58 | 51 | 133 | 52 | 86 |
| T | Müəyyən deyil | 34 | 0 | 0 | 2 | 24 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan şikayətlərin ümumi sayı | 212 | 416 | 285 | 395 | 243 |

**Şikayətlərin sahələr üzrə bölgüsü - layihə boyu (ümumi sayı – 23,001)**




## 1. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR[1]

### Bakı mərkəzi üzrə

**Dövlət Yol Polisi ilə bağlı**

Şəki rayon sakini Bakı ofisinə müraciət edərək Dövlət Yol Polisindən şikayətini çatdırıb. Müraciətçi ərizəsində bildirib ki, ona məxsus avtomobili dövlət qeydiyyatına almaq və texniki baxışdan keçirmək üçün ondan rüşvət tələb olunur. Şikayətlə əlaqədar müvafiq dövlət qurumuna göndərilən müraciətə cavab olaraq bildirilmişdir ki, vətəndaşdan dövlət rüsumu alındıqdan sonra avtomobilə texniki baxış keçirilib və avtomobil dövlət qeydiyyatına alınıb. Vətəndaş özü şəxsən mərkəzə məktubla müraciət edərək, probleminin həll edlidiyini və heç bir şikayətinin olmadığını bildirib.

**Mülkə texniki sənədlərin verilməməsi ilə bağlı**

Bakı şəhər sakini mərkəzə müraciət edərək Əmlak Məsələləri Üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestiri xidməti tərəfindən ona məxsus olan mülkə texniki sənədlərin verilməməsi ilə bağlı şikayətini bildirib. Müraciətlə əlaqədar dövlət komitəsinə göndərilən ərizəyə cavab olaraq qeyd edilib ki, vətəndaşın şikayəti araşdırılıb və məsələ müsbət həllini tapıb. Vətəndaş özüdə probleminin həll edildiyini bildirib.

---

[1] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09 və ya 596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

## Gəncə mərkəzi üzrə

**Xəstəlik haqqında arayışın alınması ilə bağlı**

Müraciətçi mərkəzə müraciət edərək Mingəçevir şəhər Psixonevrologiya Dispanserindən şikayətini bildirib. O bildirib ki, oğlu ruhi–əsəb xəstəsidir, lakin, TSEK–ə göndəriş təqdim etmək üçün müayinə məqsədilə həkimə müraciət etsədə, həkim ondan rüşvət tələb edib. Bununla bağlı, Səhiyyə Nazirliyinə göndərilən müraciətə gələn cavabda bildirilir ki, araşdırmalar aparılıb və müraciətçinin oğlunun həqiqətən ensefolopatiya dioqnozuna görə Mingəçevir Şəhər Psixonevrologiya Dispanserində qeydiyyatda olduğu dəqiqləşdirilib. Şikayət ərizəsi əsasında araşdırma aparılmış, mütəxəssislər tərəfindən müayinə olunmuş və əlillik dərəcəsi təyin olunması üçün bu barədə müəyyən edilmiş qaydalara əsasən Tibbi-Sosial Ekspert Komissiyasına (TSEK) göndəriş göndərilmişdir. Vətəndaş özü də şikayətinin müsbət həll edilməsi ilə bağlı mərkəzə təşəkkürünü bildirmişdir.

**Sayğac quraşdırılması zamanı rüşvət tələbi**

Mərkəzə müraciət edən Gəncə sakini Gəncə Elektrik Şəbəkəsindən şikayət edib, ona məxsus mülkə sayğac quraşdırılması üçün 130 manat rüşvət alındığını bildirib. Şikayətlə əlaqədar müvafiq quruma göndərilən müraciətə cavab kimi bildirilib ki, AR Nazirlər Kabinetinin 02.02.05 tarixli, 18 saylı Qərarı ilə təsdiqlənmiş "Elektrik Enerjisindən istifadə qaydaları"nın 7.6 və 8.4 bəndlərinə əsasən enerji təhcizat müəssisəsi istismarsa olan elektrik enerji sayğaclarının dəyişdirilməsinə və istismarına cavabdeh olaraq istehlakçıdan yalnız istifadə olunmuş elektrik enerjisinə görə ödəniş almalıdır, digər ödənişlər isə yolverilməzdir. Müraciətçi şəxsən ofisə gələrək, ondan alınan 130 manatın ona geri qaytarıldığını bildirib.

## Lənkəran mərkəzi üzrə

**Məhkəmə qərarının icrası ilə bağlı**

Mərkəzə müraciət edən vətəndaş Lənkəran rayon Məhkəmə qərarlarının icraçı bölməsindən şikayət edib. O bildirib ki, məhkəmə onun lehinə qərar qəbul etsə də, məhkəmə qərarı əsassız olaraq icra olunmur. Lənkəran rayon Məhkəmə qərarlarının icrası bölməsinin rəisinə ünvanladığımız məktuba cavab olaraq bildirilmişdir ki, vətəndaşın şikayəti həll olunub, çıxarılan məhkəmə qərarı icra edilib. Vətəndaş özü də mərkəzə müraciət edərək şikayətinin müsbət yerinə yetirildiyini söyləyib.

**Ünvanlı sosial yardımla bağlı**

Yardımlı rayon sakini mərkəzə müraciət edərək, Yardımlı Rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzindən şikayət edib. O bildirib ki, mərkəz tərəfindən onlara ayrılan sosial yardımı almaq üçün bankomat kartı ilə təmin olunmurlar. Sosial müdafiə mərkəzindən gələn cavabda bildirilib ki, müraciətçiyə bankomat kartı müəyyən olunmuş tarixdə veriləcəkdir. Həmin müddət başa çatdıqdan sonra isə vətəndaş şəxsən mərkəzlə əlaqə saxlayaraq bankomat kartının ona verildiyini deyib.

## Quba mərkəzi üzrə

**Hərbi xidmət dövründə qazanılan xəstəliyin müalicəsi ilə bağlı**

Quba rayonu II-ci Nüqədi kənd sakini mərkəzə müraciət edərək, hərbi xidmət dövründə tutulduğu xəstəliyin pulsuz müalicə olunmaması ilə bağlı şikayətini bildirmişdir. Vətəndaşın ərizəsi iki quruma - Müdafiə və Səhiyyə Nazirliklərinə göndərilmişdir. Hər iki qurumdan vətəndaşın şikayətinə cavab gəlmişdir. Müdafiə Nazirliyi vətəndaşa təkrarən Milli Onkologiya Mərkəzinə müraciət etməsini, şikayətinin araşdırılacağını bildirmişdir. Səhiyyə Nazirliyi isə öz cavab məktubunda göstərmişdir ki, vətəndaşın mualicə ilə təmin olunması üçün Bakı şəhərində yerləşən klinikalardan birinə göndərilməsi barədə Quba rayon Mərkəzi Xəstəxanasının rəhbərliyinə göstəriş verilib. Vətəndaş bu barədə özü də razılığını bildirmişdir.

**Torpaq məsələsi ilə bağlı**

Quba rayonu Dağlı kənd sakini mərkəzə müraciət edərək, Aqrar İslahat Kommisiyasının qərarı ilə ona ayrılmış torpaq sahəsinin sərhədlərinin təyin edilməməsi ilə bağlı şikayətini bildirmişdir. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritə Çəkmə Komissiyasına göndərilən müraciətə cavab verilmiş, vətəndaşın şikayəti təmin olunmuşdur. Cavab məktubunda göstərilmişdir ki, mülkiyyətə ayrılmış torpaq sahəsinin sərhədləri müəyyənləşdirilmiş və yerdə (naturada) ölçülərək vətəndaşa tanıdılıb.

**Yaşayış evinə dair yeni tipli çıxarışın alınması ilə bağlı**

Mərkəzə müraciət edən Quba şəhər sakini, Yaşayış evinə dair yeni tipli çıxarışın qanunsuz olaraq ona verilməməsi ilə bağlı şikayətini bildirmişdir. Məsələ ilə əlaqədar, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Xaçmaz Ərazi İdarəsinə göndərilən müraciətə cavab olaraq göstərilmişdir ki, qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətdə məsələ müsbət həll olunacaq. Daha sonra şikayətçi mərkəzə gələrək problemin aradan qaldırıldığını və yeni tipli çıxarışın ona təqdim olunduğunu bildirmişdir.

## Şəki mərkəzi üzrə

**Gömrüklə bağlı**

Şəki rayon Köbər Zəyzid kənd sakini mərkəzə müraciət edərək, Balakən Gömrük İdarəsindən şikayətini çatdırıb. Vətəndaş avtomobil hissələrini Gürcüstan-Azərbaycan sərhəddindən keçirdikdə süni maneələrlə üzləşdiyini, hissələrin məntəqədə saxlanıldığını və dövlət rüsumunun ödənilməsinə görə qəbzin verilmədiyini bildirib. Azərbaycan Respubikası Dövlət Gömrük Komitəsinə göndərilən müraciətə cavab olaraq qeyd olunub ki, vətəndaşın şikayəti həll edilib və dövlət rüsumunun ödənməsinin ardından, qəbz yazılıb və avtomobil hissələri vətəndaşa geri qaytarılıb.

**Ünvanlı Sosial yardımın ödənilməməsi ilə bağlı**

Şəki rayonu Böyük Dəhnə kənd sakini mərkəzə müraciət edərək, Əhalinin Sosial Müdafiəsi Mərkəzinin Şəki şöbəsindən şikayətini bildirib. Vətəndaş ərizəsində göstərib ki, 2008-ci ilin oktyabr ayında təyin edilmiş ünvanlı sosial yardımın iyul və sentyabr ayları üçün olan ödənişini ala bilmir. Ərizə ilə əlaqədar Şəki Rayon Əhalinin Sosial Müdafiə Mərkəzinə müraciət edilib və idarədən bildirilib ki, vətəndaşın şikayəti haqqlıdır. Komputer proqramında yaranan nasazlıqla əlaqədar ödəmələrdə yubanmanın olduğu bildirilib və qeyd olunub ki, problem aradan qaldırıldıqdan sonra vətəndaşın müavinəti ödəniləcək. Vətəndaş verilən cavabdan razı qaldığını bildirmişdir.

**Torpaqayırma sənədlərinin rəsmiləşdirilməsi ilə bağlı**

Mərkəzə müraciət edən vətəndaş torpaqayırma sənədlərinin rəsmiləşdirilməsində süni maneələrin yaradıldığını və ondan qanunsuz olaraq əlavə dövlət rüsumunun ödənməsinin tələb edildiyini bildirmişdir. Qəbul edilən ərizə ilə əlaqədar Şəki şəhər İcra Hakimiyyəti Aparatının Tikinti və Memarlıq şöbəsinə ünvanlanan müraciətə cavab olaraq bildirilib ki, vətəndaşın şikayəti araşdırılıb və qanuna müvafiq qaydada həll edilib. Vətəndaş özü də mərkəzə gələrək probleminin həll edildiyini deyib.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*